# PEDAQOJİ KADRLARIN İXTİSASARTIRMA TƏHSİLİNƏ MÜASİR YANAŞMALAR

**Mahirə İbadova,**
**Şükür Qəribov**
***Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun aparıcı əməkdaşları***

***Açar sözlər:*** *pedaqoji kadrlar, ixtisasartırma, şəxsiyyətyönümlü təhsil, yeni model, metodkabinet, regional mərkəz, monitorinq və qiymətləndirmə.*

***Ключевые слова:*** *педагогические кадры, повышение квалификации, личностно-ориентированное обучение, новая модель, методкабинет, региональный центр, мониторинг и оценивание.*

***Key words:*** *pedagogical cadres, improvement of professional skills, forming personality, new model, methodological cabinet, regional centre, monitoring and assessment.*

Azərbaycan xalqının ümummilli lideri, ulu öndərimiz Heydər Əliyevin imzaladığı "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"nda təhsil sisteminin müasirləşməsinə, təhsilimizin dünya təhsil sisteminə inteqrasiyasına nail olmaq məqsədi ilə əlavə təhsilin də yenidən formalaşmasına böyük ehtiyac olduğu müvafiq bölmələrdə (bölmə 2.1.2, bölmə 2.3.2.) göstərilmişdir.

İslahat Proqramının tələblərinə uyğun olaraq Təhsil Nazirliyi də müvafiq hüquqi – normativ sənədlər hazırlamış və təhsil sistemində həyata keçirilməsinə başlanılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 iyun tarixli 102 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiyası və Strategiyası"nda göstərilir ki, (2.3) müasir dövrdə müəllim əxlaqi cəhətdən inkişaf etmiş, yaradıcı şəxsiyyət olmalı, refleksiya qabiliyyətinə, peşə vərdişlərinə, pedaqoji ustalığa malik olmalı və yenilikçiliyə meyilli olmalıdır. Müəllim təhsilin əhəmiyyətini dərk etməli, mədəni olmalı, öz fənnini, pedaqogika və psixologiyanı gözəl bilməli, şəxsiyyətyönümlü pedaqoji üsullardan istifadə etməli, öz intellektual səviyyəsini daim inkişaf etdirmək üçün çalışmalıdır.

Müəllim yenilikçi, yaradıcı düşüncəyə malik olmalıdır. Pedaqoji fəaliyyətin yaradıcı istiqamətlənməsi müəllimdən aşağıdakıları tələb edir:

- öz imkanlarını obyektiv qiymətləndirmək, öz sənəti üçün əhəmiyyətli olan zəif və güclü cəhətlərini müəyyən edə bilmək (özünüidarə, özünüqiymətləndirmə, emosionallıq, kommunikativ didaktik qabiliyyətlər və s.);
- intellektual fəaliyyət (düşüncə, yaddaş, qavrama, təsvir, diqqət) mədəniyyətinə, davranış mədəniyyətinə, ünsiyyət mədəniyyətinə, o cümlədən pedaqoji mədəniyyətə malik olmaq;
- inteqrasiya proseslərinə, dünya təhsil məkanının inkişaf tendensiyasına uyğunlaşa bilmək.

Hüquqi-normativ sənədlərdə göstərilən bu məsələlərin icrasını təmin edərək əlavə təhsilin inkişafına daha ciddi yanaşılmış, bu sahədə müvafiq işlər görülmüşdür.

Müəllimlərin ixtisasartırma təhsilinə ehtiyacları öyrənilir, müasir təlim metodları və texnologiyalarının tətbiqi ilə bağlı seminar və treninqlərin keçirilməsinə diqqət yetirilir. Bu istiqamətdə respublikanın müxtəlif regionlarında olan müəllimlərə lazımi metodik kömək göstərilir. Onların peşə-ixtisas bacarıqlarının yeni informasiya və dünyanın qabaqcıl təcrübələri ilə zənginləşdirilməsi vacib şərtlərdəndir. Müəllimlərin ixtisasının artırılması əsasən, AMİ və onun filiallarında, BPKİYİ, ADPU və əlavə təhsil mərkəzlərində həyata keçirilir.

2009-cu ildə qəbul edilmiş "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nun 24-cü maddəsi bütövlükdə əlavə təhsilin inkişafına yönəlmişdir. Bu maddədə əlavə təhsilin istiqamətləri aşağıdakı kimi göstərilmişdir:

- ixtisasartırma;
- kadrların yenidən hazırlanması;
- stajkeçmə və kadrların təkmilləşdirilməsi;
- təkrar ali təhsil və orta ixtisas təhsili;
- dərəcələrin yüksəldilməsi;
- yaşlıların təhsili.

2010-cu il 6 sentyabr tarixdə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 163 nömrəli qərarı ilə "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi qaydası" təsdiq edilmişdir. Sənəddə aşağıdakılar qeyd edilir:

2.3.1. İxtisasartırma təhsilində dinləyicilərin biliklərinin, bacarıqlarının və peşəkarlıq səviyyələrinin, dünyagörüşlərinin müxtəlif istiqamətlərdə inkişaf etdirilməsi təlim modulları üzrə həyata keçirilir.

2.3.2. Modul ixtisasartırma təhsili prosesində nəzərdə tutulmuş müəyyən istiqamətdə bilik, bacarıq və vərdişlərin əldə edilməsinə, dünyagörüşün formalaşdırılmasına xidmət edən biliklər sistemini ifadə edir.

Yeni modelə əsasən ixtisasartırma təhsili proqramlarının 3 modul üzrə qurulması nəzərdə tutulur:

I Modul: təhsilin ümumi əsasları (pedaqoji, psixoloji məsələlər, təhsil sistemi, təhsilin əsasları, təhsilin idarə olunması, iqtisadiyyatı, maliyyələşməsi və digər məsələlər);

II Modul: ixtisas sahələri (ixtisas üzrə yeniliklər, yeni kurikulumun tətbiqi, tədris metodikaları, müasir təlim strategiyaları, nailiyyətlərin qiymətləndirilməsi məsələləri);

III Modul: təhsildə innovasiyalar və yeni tendensiyalar (İKT, xarici dil, inklüzivlik, gender və sair).

Modulun işlənilməsində ən mühüm cəhət onun məzmununun təqdim edilməsinin əyani və anlaşıqlı olmasıdır. Aydındır ki, modulun səmərəliliyi yalnız informasiyanın əhatəliliyindən deyil, həm də onun yığcamlılığından asılıdır.

Beləliklə, modul təliminin didaktik sistemi təlimin məqsədlərinə müvafiq olaraq məzmunun layihələndirilməsini nəzərdə tutur və ümumdidaktik prinsiplərə və meyarlara uyğun tərtib olunur. Modullar kompakt və əyani şəkildə təqdim edilir, həmçinin didaktik materiallarla təmin olunur.

Ənənəvi modeldən fərqli olaraq yeni modeldə dövlət təhsil müəssisələri ilə yanaşı, QHT-lər və özəl əlavə təhsil müəssisələri də prosesə cəlb edilməklə ixtisasartırma təhsili sahəsində rəqabət mühiti formalaşır. Peşəkar və səriştəli təlimçilər hazırlanır və komanda formalaşır. Müəllimlərə ixtisasartırma proqramlarının seçim imkanı yaradılır. Keyfiyyətin təmin edilməsi məqsədilə ixtisasartırma proqramlarının həyata keçirilməsi prosesi, onun nəticələri üzrə monitorinqlərin keçirilməsi və təhsilin nəticələrinin stimullaşdırılması nəzərdə tutulur. İxtisasartırma təhsili mümkün hallarda yerlərdə,

təhsil müəssisələrində həyata keçirilir. Tələbat və ehtiyacların öyrənilməsi təhsil müəssisələri, təhsili idarəetmə orqanları tərəfindən həyata keçirilir.

Qərarların icrası ilə əlaqədar olaraq əlavə təhsil haqqında hüquqi-normativ sənədlər öyrənilmiş, hər bir modul üzrə təkliflər, proqramlar, elmi məqalələr, metodik vəsaitlər hazırlanmış, AMİ və onun filiallarında, Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunda və əlavə təhsil mərkəzlərində xeyli işlər görülmüşdür.

• 2010-cu ildən başlayaraq ixtisasartırma təhsili sahəsində modul-kredit sisteminin tətbiqinə başlanmışdır.

• 2010-2012-ci illərdə 55 min müəllim (2008-2009-cu illər də daxil olmaqla 72 min) fənn kurikulumlarının tətbiqi üzrə məqsədli ixtisasartırmaya cəlb olunaraq II modul üzrə təlim kurslarından keçərək kredit toplamış və sertifikat almışlar.

• 2012-ci ilin noyabr ayından 2013-cü ilin fevral ayınadək 4 min ümumi təhsil müəssisəsi rəhbərləri, təhsil orqanları rəhbərləri və əməkdaşları "Fənn kurikulumlarının tətbiqinin idarəolunması" mövzusunda II modul üzrə təlim kurslarına cəlb olunmuşdur.

• 2013-cü ildən 50 min müəllimin fənn kurikulumlarının tətbiqi üzrə təlimlərə cəlb olunması üzrə təşkilati işlər həyata keçirilməkdədir.

• 2013-cü ildə məktəbəqədər təhsil kurikulumlarının tətbiqi ilə əlaqədar rəhbər və pedaqoji kadrlar ixtisasartırma təhsilinə cəlb edilməkdədirlər.

• Təhsil Nazirliyinin 18 aprel 2012-ci il tarixli 597 nömrəli əmri ilə "Məktəbəqədər, ümumi, ilk peşə-ixtisas və məktəbdənkənar təhsil müəssisələrinin rəhbər və pedaqoji kadrları üçün Kurikulum Çərçivəsi" və "İxtisasartırma təhsili proqramlarının qiymətləndirilməsi və tətbiqinə dair təlimat" təsdiq edilmişdir.

• Kurikulum çərçivəsində I və II modullara uyğun proqramların siyahısı, hər bir proqrama ayrılan saatların və müvafiq kreditlərin miqdarı göstərilmişdir.

• İnnovasiyalara aid III modul üzrə proqramlara ayrılan saatların və kreditlərin minimum həddi kurikulum çərçivəsində qeyd edilir, lakin proqramlar əlavə təhsil müəssisələri tərəfindən müstəqil olaraq müəyyənləşdirilir.

Bu görülən işlərə baxmayaraq problem kifayət qədər həllini tapa bilməmişdir. Bu sahədə dəqiqləşdirmə aparmaq, yeni struktur formalaşdırmağa ehtiyac duyulur.

2013-cü il 24 oktyabr tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" haqqında sərəncam imzalanmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabineti bu sərəncama əsasən Fəaliyyət Planı hazırlamaqdadır. Təhsil müəssisələri, təhsillə bağlı olan QHT-lər, mütəxəssislər, müstəqil təhsil ekspertləri, ictimai qurumlar öz təkliflərini bu fəaliyyət planının hazırlanması üçün yaradılan işçi qrupuna təqdim etməkdədirlər.

Sərəncamda əlavə təhsilə də mühüm yer ayrılmışdır. Belə ki, sərəncamın dördüncü istiqamətində ömürboyu təhsili təmin edən infrastrukturun yaradılması, regional universal mərkəzlərin qurulması məsələləri ön plana çəkilir. Sərəncamın strateji istiqamətlər bölməsində (6.4), strateji hədəflər və tədbirlər bölməsində (7.2.1.2, 7.3.3.2., 7.4.) ömürboyu təhsilin səviyyəsinin artırılmasına diqqət yönəldilmişdir.

Bəzi hallarda müəllimlərin ixtisasartırma təhsilinə cəlb olunmasında köhnə, primitiv üsullardan istifadə olunur. Ancaq müəllimlərin dərslərini dinləməklə, məktəb rəhbərlərinin göstərişləri ilə müəllimləri ixtisasartırma təhsilinə cəlb etmək səmərəli





nəticələr vermir. Burada daha yüksək nəticə əldə etmək üçün yeni metodlardan istifadə etmək məqsədəuyğundur. Beynəlxalq təcrübələrə əsaslanaraq (Rusiya, Avstraliya, İtaliya) daha mükəmməl demokratik metodlara üstünlük verilməsi təhsilalanların da, təhsilverənlərin də ehtiyac və tələblərinin ödənilməsinə şərait yaradır. Müəllimlərin ixtisasartırma təhsilinə ya könüllü, öz istəkləri ilə, yaxud monitorinqlərin nəticəsinə əsasən cəlb edilməsi daha səmərəli nəticə verə bilər.

İxtisasartırma təhsilində I, II, III modulların kredit sisteminin tətbiqi zamanı daha optimal, variativ proqramlardan istifadə olunmalıdır. Fikrimizcə, ixtisasartırma təhsilində struktur dəyişikliklərinə yeni innovativ yanaşmalar pedaqoji ictimaiyyət arasında marağa səbəb ola bilər. Aşağıda belə bir innovasiyalı strukturun modelini sizə təqdim etmək istəyirik:

İxtisasartırma təhsilinin yeni infrastrukturunun yaradılması mexanizmi formalaşdırılmalıdır. Bu, müəllimlərin, təhsil işçilərinin, məktəbəqədər müəssisə təbiyəçilərinin ixtisasartırma təhsilinin təşkili üçün innovasion strukturun bir variantıdır. Respublikanın ümumtəhsil məktəblərində fəaliyyət göstərən "Dayaq məntəqələri şəbəkəsi"nin formal xarakter daşıdığı və fəaliyyət göstərdiyi, innovativ təfəkkür təhsili ilə ayaqlaşa bilmədiyi, ictimai əsaslarla fəaliyyət göstərdiyi nəzərə alınaraq ləğv edilir. Rayon (şəhər) təhsil şöbələrində fəaliyyət göstərən Metodiki Mərkəzlər metodkabinetlərə çevrilir. Metodiki Mərkəzlərdə işləyən metodistlərin işi bu günün tələblərinə uyğun gəlmədiyinə, müasir baxımdan effekt vermədiyinə görə ixtisar edilir.

Təhsil şöbəsinin nəzdində Metodiki Mərkəz əvəzinə metodkabinet yaradılır və aşağıdakı ştatlar müəyyən edilir:

1. Müdir.
2. Laborant–operator.
3. Monitorinq və müəllim fəaliyyətinin qiymətləndirilməsi üzrə mütəxəssis.
4. Şagird, valideyn, ictimai qurumların münasibətlərini araşdıran sosioloq.

Metodkabinet müdiri–metodkabinetin ümumi işini təşkil edir. İşçilərinə rəhbərlik edir. Hər ay "Regional universal resurs mərkəzinə" kabinetin fəaliyyəti haqqında hesabatlar təqdim edir. Kabinet işçilərinin iştirakı ilə illik iş planı tərtib edilir və Rayon (şəhər) Təhsil şurasında müzakirəyə çıxarılaraq təsdiqinə nail olunur. Metodkabinet il ərzində plana uyğun şəkildə fəaliyyət göstərir.

Operator-laborant rayon (şəhər) ərazisində fəaliyyət göstərən müəllimlərin ixtisas üzrə məlumat bankını tərtib edir. Rayon (şəhər) ərazisində fənlər üzrə fəaliyyət göstərən müəllimlərin ixtisasartırmaya cəlbolunma ehtiyacları haqqında məlumatları metodkabinetin müdirinə təqdim edir.

Monitorinq və müəllim fəaliyyətinin qiymətləndirilməsi üzrə mütəxəssis plana uyğun olaraq rayon (şəhər) ərazisində müəllimlərin fəaliyyətinin monitorinqini aparır. Hər hansı bir ixtisas müəlliminin fəaliyyətinin qiymətləndirilməsi onun dərs dediyi şagirdlərin bilik və bacarıqlarının səviyyəsinin monitorinqi ilə müəyyənləşdirilir və metodkabinetə hesabatlar hazırlanır.

Şagird, valideyn və ictimai qurumların münasibətlərini araşdıran sosioloq rayon (şəhər) ərazisində fəaliyyət göstərən müəllimlərin dərs dediyi şagirdlərin (hər bir müəllim üçün ayrıca) sayını müəyyənləşdirir. Onlar arasında plana uyğun olaraq vaxtaşırı sosioloji sorğular keçirərək, şagirdlərin müəllimə münasibətini, ehtiyaclarını və arzularını aydınlaşdırır. Valideynlər arasında isə foks qrupları təşkil edir, söhbətlər aparır və valideyn-müəllim münasibətlərini öyrənir. Bütün bunlar haqqında metodkabinetin müdirinə hesabatlar verir.

Beləliklə, rayon (şəhər) təhsil şöbələrinin metodkabinetləri müəllimlərin daim

təkmilləşdirilməsi, ixtisaslarının artırılması, yeniləşdirilməsi, peşəkarlıq səviyyəsinin yüksəldilməsi, kommunikativ mədəniyyətinin formalaşdırılması məqsədi ilə sifarişlər hazırlayaraq "Regional universal resurs mərkəzləri"nə göndərir. "Regional universal resurs mərkəzləri" pedaqoji işçilər üçün ixtisasartırma təhsilini iki məqsədlə təşkil edir:

1. Karyeranın möhkəmləndirilməsi və yüksəldilməsi üçün lider təhsili.

2. İxtisasın artırılması və peşəkarlıq səviyyəsinin yüksəldilməsi təhsili.

Müəllimlərin, pedaqoji işçilərin, məktəbəqədər təhsil müəssisə tərbiyəçilərinin ixtisasartırma təhsilinə göndərilməsi iki yolla müəyyən edilir:

1. Müəllimin könüllü müraciəti əsasında.

2. Metodkabinetin ümumi rəyi əsasında.

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli sərəncamının dördüncü istiqamətinə uyğun olaraq əlavə təhsil üzrə Təhsil Nazirliyinin tabeliyində olan müstəqil və bütün sahələri (pedaqoji, mədəniyyət, sənaye, kənd təsərrüfatı, səhiyyə, ticarət və s.) əhatə edən "Regional universal resurs mərkəzləri"nin yaradılması məqsədəmüvafiq sayıla bilər.

Lakin pedaqoji kadrlar, təhsil işçiləri, əsasən ümumtəhsil məktəblərin, liseylərin, məktəbəqədər təhsil müəssisələrinin əməkdaşları üçün regionlarda regional universal resurs mərkəzləri yaradıla bilər.

Yaradılmış regional universal resurs mərkəzində mərkəzin rəhbərliyi və iki şöbənin fəaliyyət göstərməsi məqsədəmüvafiq olardı.

1. Monitorinq və qiymətləndirmə şöbəsi.

2. Təhsilin təşkili şöbəsi.

Mərkəzin rəhbərliyi regiona daxil olan rayonların təhsil şöbələrinin metodkabinetləri ilə sıx əlaqədə fəaliyyət göstərərək, işin təşkili, idarə olunması və s. hallarda əlaqələr, işlər təşkil edə bilərlər.

Monitorinq və qiymətləndirmə şöbəsi təhsilə cəlb olunan müdavimlərin keçəcəyi təhsilin modulunu müəyyənləşdirib, dinləyicilərin ehtiyac və arzusu ilə proqram seçər, təlim başlanarkən diaqnostik qiymətləndirmə aparılar, təlimin sonunda yekun qiymətləndirmə vasitəsi ilə sertifikat verilməsi haqqında mərkəzin rəhbərliyinə təqdimat hazırlanar.

Təhsilin təşkili şöbəsi vaxtı, keçirilmə yerini, həcmi, proqramlarını müəyyənləşdirir. Ehtiyac olduqda tədrisin təşkili üçün əlavə mütəxəssislər də dəvət olunur. Təlimin bundan sonra keçirilməsinə ciddi nəzarət saxlanılır. Növbəti ixtisasartırma təhsilinin elanları hazırlanır və kütləvi informasiya vasitələrində onların dərcinə nail olunur.

Təqdim etdiyimiz model pedaqoji kadrların ixtisasartırma təhsilinə yeni yanaşmanın bir variantıdır. Burada Azərbaycan Respublikasının ümumtəhsil məktəblərinin və məktəbəqədər təhsil müəssisələrinin rəhbərləri, müəllimləri, tərbiyəçilərinin tələbləri, ehtiyacları nəzərə alınmalıdır. Milli və mənəvi dəyərlərimiz əsas götürülərək dünyanın bir çox dövlətlərinin (Rusiya, İtaliya, Avstraliya və b.) ixtisasartırma modellərindən istifadə edilməsi nəzərdən qaçırılmır.

*Rəyçi: prof. İ.Cəbrayılov*

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 06 sentyabr 2010-cu il tarixli 163 nömrəli qərarı ilə təsdiq edilmiş "Əlavə təhsilin məzmunu və təşkili Qaydası". // Təhsil xəbərləri, 2010, № 6, səh. 6-32.

2. Azərbaycan Respublikası Təhsil Nazirliyinin "İxtisasartırma təhsilinin kurikulum çərçivəsi və ixtisasartırma təhsili proqramlarının qiymətləndirilməsinə dair təlimatın təsdiq edilməsi barədə" 18 aprel 2012 – ci il tarixli 597 nömrəli əmri. (Təhsil xəbərləri, 2012, № 5).

3. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. // Təhsil xəbərləri, 2012, № 6.

4. Ağamalıyev R. Pedaqoji kadrlar və onların diplomdansonrakı təhsil problemləri. // Azərbaycan müəllimi, 1998, № 48.

5. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Azərbaycan müəllimi, 2013, 25 oktyabr, № 41.

6. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı: Qanun, 2009.

**M.İbadova,**
**Ş.Qaribov**

**Новые подходы к повышению квалификации педагогических кадров**

**Резюме**

В статье излагается современное состояние повышения квалификации педагогических кадров. Характеризуется модульная система образования. Подчеркивается необходимость разработки новых подходов к структуре повышения квалификации педагогических кадров. Авторы предлагают новую модель повышения квалификации учителей.

**M.Ibadova,**
**Sh.Garibov**

**Modern approaches to the improvement of professional skills of pedagogical cadres**

**Summary**

The article is dedicated to the qualification improvement of pedagogical staff. New module system of education is characterized. The author notes the necessity of elaboration of new approaches in order to improve the qualification of pedagogical staff, and offers a new model.